İSSN 2218-7588
E- ISSN 2219-5513

LANGUAGE AND LİTERATURE
ЯЗЫК И ЛИТЕРАТУРА
DİL VƏ ƏDƏBİYYAT

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ
ЖУРНАЛ
3(120)

BAKI -2022

İSSN 2218-
7588

E- ISSN 2219-5513
İASJ 0000 0001

DİL

VƏ

ƏDƏBİYYAT

LANGUAAGE AND LİTERATURE **ЯЗЫК И ЛИТЕРАТУРА**

Beynəlxalq elmi –nəzəri jurnal

Elektron versiyası **Электронная версия**

3(120)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır

– 2022 –

REDAKSİYA HEYƏTİ - РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

UMUMİ DİLÇİLİKОБЩЕЕ ЯЗЫКОЗНАНИЕ:	**Prof.Ə Rəcəbli-məsul redaktor** **Prof. N.Məmmədli**
ŞƏRQŞÜNASLIQ VƏ İLAHİYYAT **ВОСТОКОВЕДЕНИЕ И ТЕОЛОГИЯ:**	**Prof. R.Rüstəmov–məsul redaktor** **Prof. M.Kazımov** **Dos. A.Məmədova**
AZƏRBAYCAN DİLÇİLİYİ: **АЗЕРБАЙДЖАНСКОЕ ЯЗЫКОЗНАНИЕ:**	**Prof. E.Əzizov** **Prof. T.Hacıyev** **Prof. S.Abdullayeva** **Dos. Ə.Agakişiyev**
AZƏRBAYCAN ƏDƏBİYYATI: **АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА**	**Dos. E.Məmmədov-məsul redaktor** **Dos. Ə.Nəcəfzadə**
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ: **ТЕОРИЯ ЛИТЕРАТУРЫ:**	**Akad. N.Paşayeva-məsul redaktor** **AMEA müx.üzvü, prof.T.Mütəllimov**
TÜRKOLOGİYA: **ТЮРКОЛОГИЯ:**	**Akad. N.Cəfərov – məsul redaktor** **Fil.f.dok., dos. N.Hüseynova** **Fil.f.dok. R.Bayramov**
JURNALİSTİKA: **ЖУРНАЛИСТИКА:**	**Prof. Q.Məhərrəmli – məsul redaktor**
RUS FİLOLOGİYASI: **РУССКАЯ ФИЛОЛОГИЯ:**	**Prof. Ə.Paşayeva** **Prof. L.Əhmədova** **Prof. M.Cəfərov** **Prof. L.Quliyeva-məsul redaktor**
QƏRB FİLOLOGİYASI : **ЗАПАДНАЯ ФИЛОЛОГИЯ:**	**Prof. N.Vəliyeva-məsul redaktor** **Prof. C.Nağıyev** **Prof. B.İsmayılov** **Fil.e.dok., dos. R.Xəlilov**
PEDAQOGİKA VƏ PSİXOLOGİYA:	**Prof. S.Mirzəyev** **Prof. R.Hüseynzadə** **Dos.S.Abbasova - məsul redaktor** **Dos. L.Ələkbərova**
İNSANŞÜNASLIQ **ЧЕЛОВЕКОВЕДЕНИЕ:**	**RTA müx.üzvü., prof. C.M.Mallaev** **Prof. P.Omarova** **Prof. M.Seyidova**
KİTABŞÜNASLIQ **КНИГОВЕДЕНИЕ:**	**Prof. X.İsmayılov-məsul redaktor** **Dos.M.Məmmədov**

Baş redaktor: dos. T.Cəfərli. Baş redaktorun müavinləri: prof. L.Əhmədova, fil.f.dok. R.Bayramov
Xarici əlaqələr üzrə müavin: dos. N.Əfəndiyeva. Məsul redaktor: dos. L.Ələkbərova
Məsul katib: Pərvin Eyvazov. Administrator: C.T.Əliyev
Redaksiyanın ünvanı: Bakı AZ1073, Z.Xəlilov23. BDU, Filologiya fakültəsi. Tel. 050 287 10 14
Jurnalın elektron ünvanı: http://philology.bsu.edu.az/az/content/dil_v_dbiyyat_beynlxalq_elminzri_jurnal

MÜNDƏRİCAT-CONTENTS-ОГЛАВЛЕНИЕ

***DİLÇİLİK – ЯЗЫКОЗНАНИЕ*.....5 -152**

Ч. ЭФЕНДИЕВА. Особенности актуального членения азербайджанских паремиологических единиц.....5
Q. MƏMMƏDZADƏ.Ad kateqoriyalarına məxsus qrammatik elementlərin söz sonunda derivativ funksiyası.....9
R. MƏMMƏDZADƏ. Zaman və məkan anlayışına nəzəri və metodoloji yanaşmalar.....14
L. ƏFƏNDİYEVA. Epistolyar mətnlər və müasir məktub formaları 18
F, MUSTAFAYEV. Kino dilində aktyor danışığının tələffüz xüsusiyyətləri.....22
E. QULİYEVA. Müstəqil dövlətçilik ənənələri və dil məsələləri.....25
Н. МУСАЕВА. Роль иноязычной лексики в персидском языке.....29
E. SÜLEYMANOVA, U. İSMAYILOVA. Türkologiyada mənsubiyyət anlayışının kateqoriyası.....33
R. QULİYEVA. Ərəb dilində polisemantik sözlərin yaranma yollari və işlədilməsi.....36
A. İSMAYILLI. Qarabağ bölgəsindəki ornitonimlərdən əmələ gələn mikrotoponimlərin leksik-semantik xüsusiyyətləri.....41
K. ƏLİZADƏ. Azərbaycan dilində morfem sərhədlərinin dəyişməsindən yaranan söz cütlərinə dair.....45
Ə. PİRİYEVA. Alman dilində sifətin işlənmə xüsusiyyətləri.....49
L. MƏMMƏDOVA. Müasir fars dilində frazeoloji cümlələrdə fei lkateqoriyalarının ifadəsi.....53
M. ZEYNALOVA. Sosial siniflərdildə sosial dialektlərin yaranma səbəbi kimi.....58
M. QƏHRƏMANOVA. İngilis dilində sifətin dərəcələrinin təsnifatı.....62
G. MAHMUDOVA. Azərbaycan və ingilis dillərində yemək və içki adları.....65
Р. МАМЕДОВА. Этнографическая лексика «Кабус-наме».....68
İ. BƏDƏLOVA, R. MUSAYEVA. İngilis dilində toponimlər və onların ingilis bədii əsərlərində işlənməsi.....72
D. QULİYEVA. İngilis dilində söz yaradıcılığı.....75
P. HÜSEYNOVA. Məsdər substantiv feil forması kimi.....78
S. HÜMBƏTƏLİYVA, K.İBRAHİMOVA. Azərbaycan dilinin şifahi nitqində nitq etikasının nüansları və normativ qaydaları.....81
G. MƏHƏRRƏMOVA, Z. ZEYNALOVA. Dünya dillərinin təsnifatı və bu təsnifatda ingilis dilinin rolu və əhəmiyyəti.....84
Ü. MƏHƏRRƏMOVA. Frazeoloji vahidlər və onların tərcüməsi.....87
Ф. МАММАДБАЙЛИ. Категория вида в аспектологии.....90
M. UMUDOVA. Müasir ingilis dilində metaforlarin növləri.....94
G. ABBASOVA.Tabeli mürəkkəb cümlələrdə qəlib söz funksiyasında işlənən leksik vahidlər.....97
N. AXUNDOVA. Üslubi neologizmlər leksik kateqoriya kimi.....100
R. SÜLEYMANOVA. Yunus Əmrə poeziyasının ingilis dilinə tərcümə xüsusiyətləri..... 104
Ə. QULİYEVA. XIX əsr Azərbaycan dilçiliyi: Abbasqulu ağa Bakixanov.....108
P. EYVAZOV. İtaliyada türkoloji araşdırmalar.....111
Z. ƏLƏSGƏROVA.Ornitonim tərkibli frazeoloji vahidlər, onların Azərbaycan və İngilis dillərində işlənmə metodları.....118
A. SƏFİXANOVA, V. ABIYEVA. Adjectives as a main part of speech.....122
R. QƏHRƏMANOVA. Azərbaycan və ingilis dillərində feili tərkiblər silsiləsindən cerund və onun feili-ismi üsusiyyətləri.....124
Ü. SƏLIM. Mir Cəlalın nəsr dilində frazeoloji birləşmələrin komik üslubi imkanı.....127
Y. SÜLEYMANOV. İngilis dilindən Azərbaycan dilinə yeni sözlərin tərcüməsi prosesində nəzərə çarpan uyğunluqlar və çətinliklər..129
A. HACIYEVA. Zamanların uzlaşması problemi və tabeli mürəkkəb cümlələr.....133
R. BAYRAMOV. Finlandiyada türkologiya.....137
N. MƏMMƏDOVA. Kütlə qarşısında nitq və bu nitqi təsirli edən əsas vasitələr.....141
A. ƏLİYEVA. Şifahi nitqin xüsusiyyətləri və formaları.....144
Y. QƏHRƏMANLI. Şuşalı dilçi-alim.....147
Ş.ŞƏRİFOVA. Qloballaşmanın ingilis dilinə təsiri.....150

***ƏDƏBIYYATŞUNSLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ*.....153-241**

Р. БАГИРОВ, С.ИСМАИЛОВА.Изображение азербайджанских памятников культуры и архитектуры в русской поэзии....153
B. MƏMMƏDOVA. A.S.Bayettin dil kimliyi və K. Robinson "Maskası": Mətn "Mistifikasiyası" texnologiyasına dair.....157
S. ƏLİYEVA. C. Məmmədquluzadənin felyetonlarında uşaq dünyasının bədii təqdimi.....161
P. ƏZİZOVA. Ədəbi növ və janr haqqında.....164
Ə. İSMAYILOVA. Cənubi Azərbaycan şairi Mirzə Mehdi Şükuhinin məsnəvilərində klassik ənənə.....169
V. ALLAHVERDİYEV. Altmışıncı illər Azərbaycan poeziyasının inkişafında yeni mərhələ kimi.....172
M. OSMANOVA. Çağdaş Alman romanında milli-kimlikproblemi.....175
R. CƏFƏROVA-QURBANOVA. Azərbaycan bədii mədəniyyəti estetik ideal baxımından.....179
Ə. BAXŞƏLİYEV.Səməd Vurğunun bədii obrazı özbək dramaturgiyasında.....182
И. ГУЛИЕВА. Низами Гянджави –начало пути 187
R. HACIYEVA. "Kitabi-Dədə Qorqud" dastanı ingilis elmi araşdırmalarında.....190
H. NƏSİBOVA. Süleyman Rəhimovun hekayələrində qəhrəman tipləri.....193
A. ALLAHVERDİYEVA. Nasir Xosrov və onun "Səfərnamə" əsəri.....197
A. NƏZƏROVA. "Manas" və "Alpamış": yaranma tarixi və yayılma arealı tipoloji qarşılaşdırma müstəvisində.....200
Y. ABDULLAYEVA. Müriel Sparkın yaradıcılığında satira.....203
S. LƏTİFLİ. Dünya ədəbiyyatında detektiv nəsrin tarixi mərhələlərinə elmi-nəzəri baxış.....206
J. ZEYNALLI. XX əsr Türkiyə ədəbiyyatında qadın hüquqları mövzusu.....209
M. CAVADOVA. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı.....213
N. ƏSGƏROVA.Multikultural ədəbiyyatda milli-mədəni kimlik problemi və onun elmi-nəzəri əsasları.....216
N. QULİYEVA. Sərdar Əsədin poeziyasında uşaq dünyası.....220
S. MƏMMƏDOVA. Fridrix Qotlib Klopştokun maarifçilik görüşləri.....224
L.QURBANOVA. Səməd Behrəngi yaradıcılığında azadlıq və vətənpərvərlik motivləri.....227
E. MƏMMƏDOV. Qarabağ ədəbi mühitinin inkişafında Qasım bəy Zakirin rolu.....232
S. ABDULLAYEVA, S. MUĞANNA. Əbədiləşən üç roman haqqında.....236
A. ƏZİMOVA. Cəfər Cabbarlı dramaturgiyasında Azərbaycan qadınının bədii obrazı.....239

PEDAQOGİKA-PSİXOLOGİYA, ПЕДАГОГИКА-ПСИХОЛОГИЯ 242-299
A. РАСУЛОВА. Личностно-ориентированное обучение.....242
T. MEHTIYEVA. How to use authentic texts at the English classes.....246
S. ABBASOVA. Şagirdlərdə nitq mədəniyyəti normalarının formalaşdırılması.....250
P. PAŞAYEVA. Leksikologiyanın tədrisində fəndaxili əlaqə.....253
A. QULİYEVA. Issues of democratic governance in education.....256
M. ABDULLAYEVA. İbtidai siniflərdə ifadəli oxu bacarıq və vərdişlərinin inkişaf etdirilməsində fasilənin rolu.....259
B. MƏMMƏDOV. Orta ümumtəhsil məktəblərində tabesiz mürəkkəb cümlələrin tədrisinin şagirdlərin nitq inkişafında rolu.263
M. İSMAYILOVA. Dialoqlarda idiomların işlədilməsi.....266
N. CƏFƏROVA, M. ƏLLƏZOVA. Yeni təlim texnologiyaları əsasında linqvistik təhlilin öyrənilməsi.....270
A. NƏZƏROVA . Şagirdlərdə linqvistik təhlil bacariqlaının formalaşdırılması.....273
M. ALLAHVERDİYEVA, E.YUNUSOVA. Təlim-tədris prosesində qiymətləndirmə.....277
Д, МУСТАФАЕВА. Обучение чтению студентов – азербайджанцев.....280
A. ALLAHVERDİYEVA. Die Stelle der Intensivierungsstunden im Lehrplan.....283
V. QURBANOV. Ədəbi tələffüz ilə bağlı problemlər haqqında.....286
Г. РАСУЛОВА . Чтение как вид речевой деятельности.....289
Д. КАЗИ-ЗАДЕ. Культура речи и обучение русскому языку как иностранному.....293
G. RƏFİBƏYLİ. The origin of the meanings of English animal idioms.....296
KİTABŞÜNASLIQ-КНИГОВЕДЕНИЕ.....300-304
S. QULİYEVA. Heydər Əliyevin"Müstəqilliyimiz əbədidir!" çoxcildliyinin mövzu-tipoloji təhlili.....300
JURNALİSTİKA-ЖУРНАЛИСТИКА.....305-308
N. QAFQAZLI. "Qardaş köməyi" jurnalında ədəbiyyat məsələləri.....305
MƏRUZƏ VƏ MƏQALƏLƏR – ДОКЛАДЫ И СТАТЬИ.....309
S. SEYIDOVA .. Leksik vahidlərin ekspresiv-üslubi calarlarI.....309
З. МАМЕДОВА. Фразеологическая вербализация концепта «ад» в русском языковом сознании.....313
C. MƏHƏRRƏMOVA. "Xəmsə"də vətənpərvərlik ideyaları.....316
И. КУЛИЕВА, М. САДЫКОВА. Языковые содержание обучения.....319
Q. ƏHMƏDOV. Yapon dilinin öyrənilməsi üzrə bizdəki səylər barədə.....322
E. MƏMMƏDOVA. I-II siniflər üzrə məzmun standartlarının təhlili.....324
G. İBRAHİMLİ. Azərbaycan dilində omonim qeyri-məhsuldar şəkilçilər.....327
S. HƏSƏNZADƏ. Dilin morfoloji səviyyəsi.....330
N. MƏMMƏDOVA. Natiqlik sənətində publik çıxış.....333
A. ƏLİYEVA. Kommunikasiya zamanı şifahi nitqin əhəmiyyəti və səs mədəniyyəti.....336

Чичек Эфендиева[1]

ОСОБЕННОСТИ АКТУАЛЬНОГОЧЛЕНЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ

Введение. Пословицы – это часть культуры любого народа, представляющие собой непростые конструкции. С одной стороны, это явления языка, с другой - особые логические единицы, и с третьей - тексты. Именно по этой причине пословичные изречения привлекают к себе внимание и языковедов, и философов, и фольклористов, и культорологов. Они различаются по количеству слов, по синтаксическим и коммуникативным типам предложений, по характеру актуального членения и другим признакам. Но, несмотря на успехи в области их литературоведческого анализа, а также логико-семантической классификации, количество работ, посвященных изучению пословиц с точки зрения лингвистики, в частности синтаксической организации остается недостаточным.

Актуальность темы исследования заключается в том, что в области азербайджанской паремиологии малоизученным является именно сфера актуального членения паремиологических единиц. Объект исследования – это азербайджанские пословицы и поговорки. Предметом исследования являются особенности синтаксической структуры и актуального членения азербайджанских паремиологических единиц. Цель настоящего исследования – это описание взаимодействия синтаксической организации и актуального членения пословиц азербайджанского языка.

В рамках лингвистического рассмотрения проблем актуального членения наибольшую значимость имеет нерешенный вопрос о соотнесении синтаксического и актуального членения. Из сказанного становится очевидной необходимость сочетания синтаксического анализа с анализом актуального членения паремиологических выражений для достижения наиболее полного описания рассматриваемых явлений.

1.Спецификасинтаксической структуры и актуального членения паремологических единиц

Исследование синтаксического строя отдельных жанров фольклора, в частности паремиологического фонда азербайджанского языка считается одним из важнейших направлений исследования устно-поэтического языка [1, 18].Метафоричность, лаконичность, меткость пословиц и поговорок в значительной степени достигается их синтаксическим строем, заслуживающим специального изучения. «Образность и обобщенность содержания пословиц и поговорок определяют и принципы построения их грамматической структуры»[2,46].

Основная функция синтаксической организации предложения заключается в установлении отношения высказываемого в предложении к объективной действительности и реализации, таким образом, познавательной функции языка. Предложение, как известно, является грамматически оформленной конструкцией, а не коммуникативной единицей, вследствие чего возможна вариативность в распределении коммуникативной нагрузки между членами предложения.

Основная же функция актуального членения –это формирование сообщения в соответствии с коммуникативным заданием автора (в нашем случае автор анонимен, потому что речь идет о паремиях) и субъективными условиями общения и реализации коммуникативной функции языка. Актуальное членение оказывается зависимым от синтаксического строя предложения, так как использует выраженные грамматическим членением отношения для создания коммуникации. На уровне актуального членения предложение становится собственно коммуникативной единицей.

В пословицах проявляется единство познавательной и коммуникативной функций языка. С синтаксической точки зрения пословицы являются предложением. Однако функционирование пословиц в качестве средства передачи коллективной мудрости обусловливает превосходство их коммуникативной функции над законами синтаксического строя предложения. Единство синтаксиса и актуального членения для формирования конструкций без предикативных особенностей с нейтральной коммуникативной структурой находит наиболее яркое выражение в пословицах в форме полных простых двусоставных предложений, соответствующих нормам азербайджанского литературногоязыка (двусоставность и прямойили обратный

порядокслов).Модели простых предложений в языке пословиц подразделяются на двусоставные и односоставные, причем количество двусоставных предложений преобладает по сравнению с односоставными. Проведенный анализ показал, что эти предложения обладают высокой степенью абстракции, фиксированным словопорядком: подлежащее (тема), сказуемое (рема).

Обобщенно-личные предложения, наиболее характерные для пословиц и поговорок, хотя и отличаются лаконичностью, довольно часто содержат образность и иносказательность и используются для обозначения типичных ситуаций. По мнению И. Гамидова, «максимально обобщенная семантика пословиц, их аналитический смысл находят свое воплощение в особых «модельных» ситуациях. В этом плане пословицы представляют универсально-аналитические конструкции с той лишь разницей, что пословицы не имеют конкретного автора» [3, 243-244].Кроме типичных для обобщенно-личных предложений форм в азербайджанском языке есть и редко

[1]AMEA Folklor İnstitutu, Müasir Folklor şöbəsi, dosent, cicek@mail.ru

встречающиеся конструкции, в которых при отсутствии подлежащего отношение действия к лицу выражается обобщенно, то есть тут значение деятеля частично конкретное.

Наиболее характерной для паремий, выраженных сложными предложениями, является трехчленная или четырехчленная конструкция с синтаксическим параллелизмом частей и сопоставительно-противительными отношениями. Для всех моделей сложных предложений характерна неполнота предикативных частей, наличие односоставных конструкций и структурного параллелизма. Здесь следует отметить, что «простые» пословицы в большинстве случаев – это вторичные образования, генетически восходящие к сложным» [3, 243].

1.2.Особенности актуального членения паремиологических единиц

Употребление паремий в определенной позиции актуального членения мы рассматриваем как следствие реализации интенции говорящего, включающего в коммуникативную ситуацию то или иное знание. Реализация интенций происходит в условиях актуального членения высказывания, способствующего раскрытию личностных намерений говорящего. «Говорящий распределяет кванты информации по предложениям и коммуникативным компонентам предложений», определяя порядок следования коммуникативных компонентов в предложении в зависимости от определенного коммуникативного режима, стиля и жанра, осуществляя тем самым актуальное членение высказывания [Янко, 13].

В отличие от *темы* в обычном предложении, где для слушающего (или читателя)она может быть и повтором известного события, и новой информацией, *тема* в пословицах и поговорках является обычно не только описанием конкретной ситуации, но и может быть каким-либо вымышленным событием. М. Мусаев*тему* и *рему*в пословицах такопределяет: «известное (*тема*) и новое (*рема*) – это семантико-функциональные части или синтагмы: *Ac (T)nə yeməz(R), tox (T) nə deməz (R)*(голодный не ест, а сытый молчит); *Dost (T) – acı söylər(R)*(друг правду говорит); *Ayağını (T) yorğanına görə uzat (R), Yorgana görə (T) ayak uzat (R)*(протягивай ножки по одежке)(Türkm., Özbək., Qazax)»[5, 208, 216; 6, 61].

Итак, *тема* играетважную роль в создании любого выраженияи приводит к появлению информационно значимой *ремы*.Тематическая и рематическая часть каждого выражения определяется конкретным коммуникативным заданием.Например, в паремиологических выражениях со структурой синтаксического параллелизма, естесственно, имеются две *темы* – две *ремы*. И. Ковтунова отмечает, что «две части комплексной темы – первая и вторая тема – могут иметь разный коммуникативный вес» (Ковтунова, 1976: 54, 76-77). Сказанное относится к обычным предложениям, потому что в пословицах и поговорках со структурой синтаксического параллелизма две темы – две ремы имеют одинаковый коммуникативный вес, например,*Adam (T) pulu qazanar (R), pul (T) adamı qazanmaz (R)* (не деньги нас наживают, а мы деньги наживаем); *Ağırlıq (T) - qızıl qala (R), yüngüllük(T) – başa bəla(R)*(солидность – золотая крепость, ветреность - беда)[7, 27, 32, 35;6, 22].

Пословицы со структурой сложносочиненного предложения с точки зрения актуального членения создают структуру двух независимых коммуникативных единств с развитием от *темы* к *реме*. С синтаксической точки зрения такого типа пословицы указывают на грамматическую независимость простых предложений в составе сложносочиненных предложений.Таким образом, из-за отсутствия особенностей на синтаксическом уровне наблюдается и отсутствие особенностей на коммуникативном уровне. Например, *Ağ gün (T) ağardar(R), qara gün (T) qaraldar (R)*(в добром житье краснеют, а в худом - бледнеют);*Ağa (T) gətirər navala (R), xanım (T) tökər çuvala (R)*(муж носит в дом мешком, а жена выносит горшком)[7, 17, 18; 6, 27]. В составе пословиц со структурой сложносочиненного предложения во втором простом предложении в коммуникативном аспекте образуются без глагольных конструкций. Например, *ağıllıbaş (T) bəlasız olar (R), doğru yol (T) - qərəzsiz* **(olar)** *(R)*(умная голова без беды бывает, верный путь – без препятствий (**бывает**));*arvadı (T) ər saxlar(R), bostanı (T) - bar* **(saxlar)***(R)* (жену муж бережет, а огород – урожай **(бережет)**); *ağıllı (T) kamal axtarar (R), cahil (T)- mal* **(axtarar)***(R)*(умный разум ищет, а невежа – богатство **(ищет)**)[7, 25, 67].В данных синтаксических конструкциях имеется формально-неполный элемент, образующий по сравнению сосложносочиненным предложением еще более сложную конструкцию. Коммуникативные конструкции таких пословиц осложняются, поэтому их можно считать сочетанием двух коммуникативных единств.

Несоответствие синтаксического и актуального членения отражается только в двухвидах пословиц и поговорок с формально-неполным элементом. К ним относятся простые и сложносочиненные предложения без вспомогательного глагола, без семантически ослабленного глагола и без морфологического показателя *–дыр*. Например, *arvadın isməti - ərin izzəti*(**-dir**)(честь жены – (**это**) честь мужа);*alış-veriş (T) misqalla (***olar***) (R), dostluq(T) – xalvarla (***olar***) (R)*(дружба дружбой (**бывает**), а денежкам счет (**бывает**));*ağıllı baş (T) bəlasız olar (R), doğru yol (T) - qərəzsiz (***olar***) (R)***(умная голова без беды бывает, верный путь – без препятствий (**бывает**));*at (T)yüyənsiz olmaz(R), bağ (T) baxımsız (***olmaz***)(R)*(ни конь без узды, ни богатство без ума (**не бывает**)[7, 19-74; 6, 40, 55].Как видим, нарушение нормы (отсутствие в именном сказуемом вспомогательного глагола или семантически ослабленного глагола в глагольном сказуемом) азербайджанского языка на синтаксическом уровне способствует образованию более выразительных коммуникативных конструкций.

Какбыловышеуказано, структура некоторых из исследованных нами паремиологических единиц относятся к односоставным предложениям. Несмотря на то, что в фольклорных текстах пословицы и поговорки со структурой односоставных предложений по сравнению с двусоставными меньше используются, тем не менее они

своей краткостью и экспрессивностью занимают значительно еместо в выражении мысли. Ф. Вейселли пишет, что «подлежащее означает тему, сказуемое - рему и из-за отсутствия в таких предложениях подлежащего возможности актуализации в них еще сильнее; вернее, такие предложения ненуждаются в теме, она навтором плане, подразумеваясь посредством ремы, более способствует в актуальном выражении мысли. В двусоставных предложениях сказуемое связано с предметом мысли и с его выразителем – подлежащим, носит его признаки; а в структурах односоставных предложений сказуемое занимает центральноеместо» [8, 318].Это значит, что в односоставных предложениях рематическая часть сравнительно с тематической частью более сильная. Коммуникативные конструкции со слабой *темой* в паремиологических единицах представлены сложной *ремой*. Например,*ata (T)dost kimi bax (R),düşmən kimi min (R)* (лошадькормикаксына, а берегиськакворога);*aşını bişir (T) - söylə (R), sözünü düşün (T) - söylə (R)* (сперваподумай, а там и скажи)[7, 19, 80, 94; 6, 56, 53].Это приводит к уменьшению значения тематического компонента. Синтаксическая организация таких пословиц и поговорок не выходит за рамки нормы литературного языка, например, обобщенно-личные предложения *anlayana (T) qul ol (R), anlamayana (T) ağa ol (R)* (лучше с умным в адучем с глупым в раю),*aşını bişir (T) - söylə (R), sözünü düşün (T) – söylə (R)* (сперваподумай, а там и сказки); безличные*Allahdan(T) qorxmaz (R), bəndədən(T) utanmaz (R)* (смерти боятся, а людей не стыдятся),*acın imanı (T) olmaz (R), toxun – amanı (T) (olmaz)* (бедность учит, а счастье портит)[6, 47, 53, 44, 18].Как видим, вданных единицах наблюдается сильная позиция *ремы*.Надо только отметить, что первая *тема-рема* относительно второй *темы-ремы* находится в более значимой позиции в паремиологических единицах не зависимо от того, находятся они в контексте или вне контекста. *Рема* как коммуникативный центр суждения обязательнодолжна быть выражена в предложении, а«*тема*, обозначающая данное, в некоторых случаях может быть опущена»[9, 47].

Таким образом, пословица или поговорка, употребляемая говорящим, позволяет ей реализовать свои замыслы, в результате чего решаются следующие задачи: 1) выявление явных и скрытых целей высказывания; 2) развитие речевого этикета; 3) построение речевого общения в соответствии с поставленной целью; 4) оценка общего фонда знаний говорящего, его конкретной информированности, языковой культуры, особенностей характера и способности понимания адресата; 5) анализ отношения говорящего к тому, что он сообщает, то есть заключенного в нем метафоричного смысла. Все эти положения решаются за счет употребления паремий в различных позициях актуального членения.

Заключение. В настоящем исследовании была предпринята попытка определить глубину взаимодействия синтаксической организации и актуального членения паремиологических единиц. Актуальное членение пословиц можно соотнести с актуальным членением предложения. Следует отметить, что синтаксическая организация пословиц, характеризующиеся законченностью, структурной замкнутостью и независимостью от контекста, определяется их коммуникативным назначением. Абсолютное большинство пословиц азербайджанского языка является с синтаксической точки зрения полными двусоставными предложениями, имеющими нейтральную коммуникативную структуру с объективным развитием от темы к реме. В статье указывается, что исследуемые паремиологические единицы со структурой синтаксического параллелизма состоят из сложносочиненных (полных и эллиптических) и односоставных предложений. На основе анализируемого материала были определены основные два вида взаимодействия синтаксиса и актуального членения – это соответствие/несоответствие синтаксиса и актуального членения для формирования нейтральных выражений, то есть имеется в виду соответствие выражения нормам литературного языка (прямой порядок слов). С коммуникативной точки зрения такие пословицы и поговорки осуществляют коммуникативное единство и показывают развитие от темы к реме.

В результате анализа актуального членения азербайджанских пословиц были выявлены примеры с выражением темы перед выражением ремы – это особенность письменной речи, и примеры - с выражением ремы перед выражением темы, а это особенность уже устной речи. Таким образом, актуальное членение паремиологических единиц способствует пониманию специфики азербайджанской языковой ментальности.

Литература:

1. Ханмагомедов Б.Г. Очерки по синтаксису табасаранского языка. Махачкала, 1970. 220с.
2. Корсанова Т.К. Сопоставительное исследование пословиц осетинского, русского и английского языков: Автореф. канд. дис. М., 1984. - 24с.
3. Гамидов И. Г., Философия грамматики афоризмов и пословиц, Баку: Сабах, 2001, 272 с.
4. Янко Т. Е.,Коммуникативные стратегии русской речи, Москва, Языки славянской культуры, 2001, 382 с.
5. Musayev, M. M., Türkoloji dilçilik., Bakı: Bakı Slavyan Universiteti, 2012. 454 s.
6. Həmidov İ., Axundov B., Həmidova L. Azərbaycanca-rusca, Rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti, Bakı, Təhsil, 2009, 560 s.
7. Hüseynzadə, Ə., Atalar sözləri və məsəllər., Bakı: Elm və təhsil, 1985, 690 s.
8. Veysəlli, F.Y., Kazımov, Q.Ş., Kazımov, İ.B., Məmmədov, A.Y., Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. III c. Bakı: Prestij, 2014. 505 s.
9. Ковтунова И.И., Современный русский язык, Порядок слов и актуальное членение предложение., Москва: Просвещение,1976, 235 с.

Ключевые слова: пословицы, поговорки, синтаксическая организация, актуальное членение, тема, рема, коммуникация

Açar sözlər: atalar sözü, məsəllər, sintaktik quruluş, aktual üzvlənmə, tema, rema, kommunikasiya

Key words:proverbs, sayings, syntactic organization, actual articulation, topic, rheme, communication

Резюме

Особенности актуального членения азербайджанскихпаремиологических единиц

В настоящей статье дается описание взаимодействия синтаксической организации и актуального членения в пословицах азербайджанского языка. В ходе анализа было выявлено, что пословицы представлены, в основном, в виде двусоставных, односоставных и сложных предложений с синтаксическим параллелизмом. Кроме того, на основе анализируемого материала были определены основные два вида взаимодействия синтаксиса и актуальногочленения – это соответствие/несоответствие синтаксиса и актуального членения для формирования нейтральных выражений, то есть имеется в виду соответствие выражения нормам литературного языка. С коммуникативной точки зрения такие пословицы и поговорки осуществляют коммуникативное единство и показывают развитие от темы к реме. Таким образом, актуальное членение паремиологических единиц способствует пониманию специфики азербайджанской языковой ментальности.

Xülasə

Azərbaycan paremioloji vahidlərinin aktual üzvlənmənin xüsusiyyətləri

Bu məqalədə Azərbaycan dilindəki atalar sözlərinin sintaktik quruluşununvə aktualüzvlənməninqarşılıqlı əlaqəsi təsvir edilmişdir. Təhlil zamanıatalar sözləri əsasən cüttərkibli, təktərkibli və sintaktik paralelliklimürəkkəb cümlələr şəklində təqdim olunduğu ortaya çıxarılmışdır. Bundan əlavə, təhlil edilən material əsasında sintaksis ilə aktualüzvlənməninarasında qarşılıqlı əlaqənin əsas iki növü müəyyən edilmişdir - bu, neytral ifadələrin formalaşması üçün sintaksis və aktual üzvlənmənin uyğunluğu/uyğunsuzluğu, yəni ifadələrin ədəbi dil normalarına uyğunluğu nəzərdə tutulur.Kommunikativ nöqteyi-nəzərdən belə atalar sözləri və məsəllər kommunikativ vəhdət həyata keçirir və temadan remaya inkişafını göstərir. Beləliklə, paremioloji vahidlərin aktual üzvlənməsi Azərbaycan dili mentalitetinin xüsusiyyətlərini dərk etməyə kömək edir.

Summary

Features of the actual articulation of Azerbaijani paremiological units

This article describes the interaction of the syntactic organization and the actual articulation of proverbs in the Azerbaijani language. The analysis revealed that proverbs are presented mainly in the form of two-part, one-part and complex sentences with syntactic parallelism. In addition, on the basis of the analyzed material, the main two types of interaction between syntax and actual division were identified - this is the correspondence / inconsistency of syntax and actual division for the formation of neutral expressions, that is, the correspondence of the expression to the norms of the literary language. From a communicative point of view, such proverbs and sayings carry out communicative unity and show development from topic to rheme.Thus, the actual division of paremiological units contributes to understanding the specifics of the Azerbaijani language mentality.

RƏYÇİ: prof. F. Bayat

Qənirə Məmmədzadə[2]

AD KATEQORİYALARINA MƏXSUS QRAMMATİK ELEMENTLƏRİN SÖZ SONUNDA DERİVATİV FUNKSİYASI

Ad kateqoriyalarına məxsus kəmiyyət bildirən *–lar* (-lər) şəkilçiləri, mənsubiyyət, hal və xəbərlik şəkilçiləri tərkibindəki müəyyən elementlərin söz tərkibində özünəməxsus derivativ funksionallıq qazanmaq imkanlarına malikdir. Qrammatik kateqoriya şəkilçilərinin sözdüzəldici yerinə keçidi, əlbəttə ki, təsadüfi olmayıb informativliyin derivativ elementlərlə ifadə edilməsində yetərli olmaması ilə izah edilə bilər. Qrammatik elementlərin derivativliyə keçid prosesi bütün şəkilçili dillər üçün universal hadisə sayılmasına baxmayaraq dillərin hamısında bu tipli keçidlərin eyni səviyyədə baş verməsini iddia etmək mümkün deyildir. Bu proses hər bir dilin özünəməxsus informasiya tələbləri ilə bağlı olduğu üçün ayrı-ayrı dillərdə həmin göstəricilər bir-birindən fərqli şəkildə meydana çıxmışdır. Azərbaycan dilinin informasiya aktivliyinə uyğun olaraq demək olar ki, ad kateqoriyalarının hamısının daxilində qrammatiklikdən derivativliyə keçid meyilləri müşahidə edilir. Həmin prosesi ad qrammatik kateqoriyalarına məxsus aşağıdakı kimi elementlərin derivativ funksionallığında görmək mümkündür.

Kəmiyyət bildirən –lar (-lər) şəkilçisinin derivativ funksiyası

Kəmiyyət kateqoriyası elementləri üzrə xüsusi tədqiqat aparmış Aslan Aslanov *-lar* (-lər) şəkilçilərinin funksional xarakterindən bəhs edərkən onların müəyyən hallarda cəmlik funksiyasını itirərək sözdüzəldici şəkilçiyə çevrilmək imkanlarına malik olduğunu göstərir və həmin fikrinin təsbit edilməsi üçün *Şahlar, Bəylər, Xanlar* kimi nümunələri misal göstərir [1, s.79]. Həmçinin onu da nəzərə almaq lazımdır ki, Aslan Aslanovun verdiyi nümunələr içərisindəki *Nizamilər, Füzulilər, Vaqiflər, Sabirlər, Puşkinlər, Tolstoylar, Koroğlular, Hacılar, Tolstoylar, Qacarlar*; həmçinin, nominativ məna daşımayan çeşid və növ bildirən *sular, küləklər, işıqlar, şüalar, səfəvilər, xəzərilər, haşimilər, məzdəkilər, asurilər, ağ qoyunlular, qaraqoyunlular, minlər, milyonlar, zamanlar, otuzminçilər, 26-lar, onüçlər, səhərlər, axşamlar, gecələr, gündüzlər, aylar, illər, əsrlər, qərinələr, nələr, kimlər, yerlər, göylər, gülüşlər, ellər, xalqlar, qırmızılar, ağlar, əvvəlkilər* və s. nümunələr [1, s.71-77] prinsipcə derivativ xarakter daşıyır.

Qrammatik cəhətdən kəmiyyət kateqoriyasına aid olan *–lar* (-lər) şəkilçilərinin derivativ funksiya daşıması digər mənbələrdə də qeydə alınmışdır. Ə.Dəmirçizadə "Azərbaycan dilinin üslubiyyatı" kitabında *–lar* (-lər) şəkilçisinin derivativ xüsusiyyətini ayrı-ayrı nitq hissələrinə qoşulub yeni məna kəsb etməsi ilə səciyyələndirir. Belə ki, *–lar* (-lər) *şəkilçisi xüsusi isimlərə qoşularaq tayfa, nəsil, şəcərə* (*Səfəvilər, Axmanovlar, Oğuzlar, Xəzərlər, Nizamilər, Füzulilər*) bildirir, *ümumi* (abstrakt) *isimlərə qoşulub mənəvi anlayış* (sevgilər, qorxular, fəlakətlər, xoşbəxtliklər, dəhşətlər) bildirir, *saylara qoşulub zümrə, dəstə mənası* (iyirmialtılar, qırxlar) bildirir; sifətlərə qoşulub qrup, tərəfdar mənası (ağlar, qaralar, qırmızılar) bildirir; zaman bildirən sözlərə qoşulub dövr, mərhələ mənası (əvvəllər, sonralar, qabaqlar, bir zamanlar) *bildirir; əvəzliklərə qoşulub qrup* (bizlər, sizlər) bildirir [4, s.190-192].

Əsgər İlkin məhsuldarlıq yaradan qeyri-məhsuldar şəkilçilərdən bəhs edərkən *–lar* (-lər) şəkilçisinin də *Ağalar, Bəylər, Şahlar, Xanlar, Yeddilər, Doqquzlar* sözlərinin tərkibində derivativ xüsusiyyət kəsb etdiyini göstərir [7, s.23]. Səlim Cəfərovun "Müasir Azərbayca dili. Leksika" adlı kitabında da *Şahlar, Ağalar, Bəylər, Göylər, Abdallar* kimi sözlərin tərkibində *–lar* (-lər) şəkilçisinin derivativ xarakter daşıdığı göstərilir [3, s.158]. Türk dillərinin ayrı-ayrı dillərlə müqayisəsinə həsr olunmuş tədqiqat əsərlərində də *–lar* (-lər) şəkilçisinin qrammatikliklə yanaşı derivativ funksiya daşıması barədə müvafiq faktlar verilir [10, s.21; 11, s.15]. Azərbaycan dilində qrammatik kəmiyyət bildirən *–lar* (-lər) şəkilçisinin derivativliyə keçid prosesi ilə formalaşan söz qruplarını aşağıdakı kimi xarakterizə etmək olar:

1) *–lar* (-lər) şəkilçisi xüsusi adlara qoşularaq nəsil, şəcərə, tayfa, tərəfdar, ənənə mənalı sözlər əmələ gətirir: *Əhmədalılar, Meydanalılar, Mahmudbəylilər, Qurdlar, Tülallar, Ozanlar, Qacarlar, Əməvilər, Haşimilər, Qüreyişilər, Nizamilər, Füzulilər, Vaqiflər, Sabirlər* və s.

2) *–lar* (-lər) şəkilçisi şəxs adlarına və ümumi isimlərə qoşularaq satirik məzmunlu nümunələrdə xarakterizəedici keyfiyyət bildirilməsinə xidmət edir:

Tacirlərimiz Sonyalara bənd olacaqmış
Bədbəxt Tükəzbanları neylərdin, İlahi! [8, s.146].

Daş qəlbli insanları neylərdin, İlahi! [8, s.145].
Xoşlamarıq bir para nadanları
Şiveyi-nisvani-müsəlmanları
Neyləyirik Fatma- Tükəzbanları?!
Annaları, Sonyaları, yanları
Ay bərəkkallah, nə gözəl canlarıq! [8, s.149].
Mühərrirlər, Müfəttinlər, usanmazlar,
usanmazlar, utanmazlar
Yazarlar hərzələr, əfsanələr, həyyanlar insanlar! [8, s.89].

[2] **Gəncə Dövlət Universiseti. Qiyabi doktorant. ganira.mammadzadeh@gmailcom**

3) *–lar* (-lər) şəkilçisi bir çox etotoponimlərin formalaşmasında sözdüzəldici vasitə kimi iştirak edir: *Dəllər* (Ağsu, Saatlı, Şəmkir), *Dəlləklər* (Yevlax), Zallar (Kəlbəcər), *Kosalar* (Lənkəran), *Otuzikilər* (Bərdə), *Türklər* (Laçın), *Dərvişlər* (Şərur), *Eyvazallar* (Beyləqan), *Qaralar* (Sabirabad), *Yolqullar* (Daşkəsən, Goranboy), *Gödəklər* (Beyləqan, Qubadlı), *Gürzallar* (Goranboy), *Dəmirçilər* (Ağdərə, Qazax, Tərtər, Xankəndi), *Şıxlar* (Ağdam, Goranboy, Qaz) və s.

4) *–lar* (-lər) şəkilçisi sifətlərə qoşularaq zümrə, qrup, məsləkdaş mənalı adlar əmələ gətirir: *Ağlar, Qaralar, Qırmızılar, Qızılbaşlar*.

5) *–lar* (-lər) şəkilçisi saylara qoşulub tərəfdaş anlayışlı sözlər əmələ gətirir: Bunlar daha çox üç, yeddi, qırx rəqəmləri əsasında düzələn sözlərdən ibarətdir ki, həmin sözlər müəyyən dərəcədə həm də sufi-mistik anlayışlar bildirir. Belə sözlərə daha çox klassik poeziya dilində, o cümlədən, xalq sənətkarlarının bədii-poetik yaradıcılıq nümunələrində rast gəlmək olur. Bunlara aid aşağıdakı ümunələri misal göstərmək olar:

Qırxlar bir yerdə durdular
Otur deyə yer verdilər
Önümə surba sərdilər
Əl loğmaya sun dedilər [9, s.350].

Əzəldən əvvəli biz haqqı bildik
Haqdan nida gəldi, haqqa haqq dedik
Qırxlar meydanında yunduq, pak olduq
İstəməm təharət yundum da gəldim [9, s.338].
Qırxlar piri özü verib dərsimi ümman mənim
Çətin girə ürəyimə ləini-şeytan mənim [2, s.37].
Qırxlar piri özün yetiş dadıma
Bir də məni yetir yar ayağına [2, s.104]. (Aşıq Abbas)

Halaldan mayam, bulunmaz haram
Qırxlar məclisində mən onda varam [2,s.126] (Aşıq Abbas)
Söyün deyərlər adıma
Qırxlar yetişsin dadıma
Yarım düşəndə yadıma
Yana pərvana layıqdı [2, s.336] (Aşıq Hüseyn Şəmkirli).

Üç kimsə tanıram fani dünyada
Yeddilər çatdırıb məni murada
Qırxların əlindən içmişəm badə
Qırx min dostun qanı axan günüdür [12] (Şair Nəbi)

Mənbələrdə 3, 7, 40 rəqəmlərinin mistik-sufi anlayış bildirməsi ilə əlaqədar göstərilir ki, "*Türk olmaq üçlər, beşlər, yeddilər, qırxlar, əlindən badə içərək əlinə, dilinə, belinə sahib olmaqdır*" [5, s.24-25].

Üçlük islamda Allah, Məhəmməd, Əli; beşlik Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn inamları əsasında formalaşmışdır [12, s.39, 71].

Qırxlar sözündə 40 rəqəminin mənası 40 nəfərdən, 23 kişidən, 17 nəfər qadından ibarət olan övliya kimi izah edilir, onların məqamının, yəni "Qırxlar piri"nin Dağıstan ərazisində olduğu güman edilir [12, s.73].

Yeddilər sözündəki 7 rəqəminin yeddi peyğəmbərə (Adəm, Nuh, İbrahim, Musa, Davud, İsa, Məhəmməd) aid rəmzi məna daşıdığı bildirilir [13].

6) *–lar* (-lər) şəkilçisi əvəzliklərə qoşulur, fərqləndiricilik bildirilməsinə xidmət edir.

Bu şəkilçi birinci və ikinci şəxsin təkini bildirən əvəzliklərə qoşulmur. Üçüncü şəxsin təkinə qoşulduqda isə onun qrammatik cəmləşməsinə xidmət edir. Kəmiyyət şəkilçisi ancaq birinci və ikinci şəxslərin cəminə qoşula bilir ki, bu da ancaq üslubi məqamda mümkün olur. Buna aid Mirzə Ələkbər Sabirin satirik-üslubi məqamda işlətdiyi aşağıdakı nümunələri misal göstərmək olar:

Uşaq mənimdir, baba, dəxli nədir sizlərə
Kim sizi qəyyum edib, hökm edəsiz bizlərə [8, s.272].

-*Lar* (-lər) şəkilçisi, həmçinin, elə, belə, bəzi əvəzliklərinə də qoşulub fərdiləşdirici məzmunlu sözlər əmələ gətirir: *elələri, bələləri, bəziləri*.

Mənsubiyyət bildirən şəkilçilərin derivativ funksiyası: Mənsubiyyət kateqoriyası şəkilçiləri hamısı demək olar ki, bu və ya digər dərəcədə qrammatiklikdən derivativliyə meyillilik xüsusiyyətini nümayiş etdirir.

Bunlar əsas etibarı ilə aşağıdakılardan ibarətdir:

I şəxs tək. Birinci şəxsin təkində *–ım* (im, -um, -üm) şəkilçisi işlənir. Xalis qrammatik göstərici kimi bu şəkilçi sahib şəxs – mənsub əşya münasibəti bildirən üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfində işlənir: *mənim kitabım, mənim dəftərim, mənim otağım*. Birinci şəxs mənsubiyyət şəkilçisi derivativ funksiya bildirmə məqamında *bəyim, xanım, özüm* kimi sözlərin tərkibində işlənir. İlkin Əsgər bu şəkilçini sözdəyişdiricilikdən sözdüzəldiciliyə keçmiş qeyri-məhsuldar şəkilçi kimi

izah edir və buna nümunə kimi *xanım* sözünü nümunə göstərir [7, s.39]. Əslində *bəyim sözü mənim bəyim, xanım sözü mənim xanım, özüm sözü mənim özüm* söz birləşmələrinin bir vahid kimi müstəqilləşib motivləşməsi sayəsində yaranmışdır.

II şəxs tək. Birinci şəxsin təkində olduğu kimi ikinci şəxsin təkində də qrammatik mənsubiyyət şəkilçisinin derivativ funksiyası məhduddur. Qrammatik cəhətdən ikinci şəxsə aid olan *–ın* (-in, -un, -ün) şəkilçisi üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfində işlənir və ikinci şəxsə aid sahib şəxs-mənsub əşya münasibəti bildirir: *sənin kitabın, sənin dəftərin, sənin evin.* Derivativ funksiya bildirdikdə isə söz birləşməsi yaranmır, müstəqil bir vahid nümunəsində motivləşmiş söz yaranır. Məsələn, qrammatik şəxs şəkilçisinin derivativliyə keçidi yolu ilə *üstün, çirkin, ilkin* kimi sözlər formalaşmışdır. Əslində bu sözlərin nominativ anlayışında [sənin] *üstün,* [sənin] *çirkin,* [sənin] *ilkin* məna xüsusiyyətləri gizlənir. Azərbaycan dilində reduplikasiya üzrə formalaşmış *dizin-dizin, için-için, korun-korun, dalın-dalın* (geriyə-geriyə) kimi mürəkkəb sözlərin formalaşması da mənsubiyyət şəkilçisinin qrammatiklikdən derivativliyə keçidi sayəsində baş vermişdir.

III şəxs tək. Üçüncü şəxsin təkini bildirən mənsubiyyət şəkilçisinin qrammatiklikdən derivativliyə keçidi birinci və ikinci şəxslərə nisbətən daha fəaldır. Bu keçiddə üçüncü şəxsə aid həm saitlə, həm də samitlə bitən sözlərə qoşulan variantların (-ı, -i, -u,-ü; -sı, -si, -su, -sü) işlədilməsi müşahidə edilir. Üçüncü şəxsin təkini bildirən şəkilçilərin qrammatiklikdən derivativliyə keçidi fəal olduğu üçün sözdüzəltmə məsələləri ilə bağlı mənbələrdə həmin şəkilçinin rolu da diqqətdən kənarda qalmamışdır. Məsələn, İlkin Əsgər düzgün olaraq üçüncü şəxsin təkini bildirən şəkilçilərin derivativliyə keçidi üzrə formalaşmış *Ağası, balası, ölüsü, eləsi, beləsi, cəmisi* kimi sözləri misal göstərir [7, s.15].

Üçüncü şəxsin təkini bildirən mənsubiyyət şəkilçilərinin derivativliyə keçidi ilə əlaqədar əlavə olaraq aşağıdakı kimi sözlərin düzəlməsini nümunə göstərmək olar: *günü, sabahı, axşamı, ertəsi, Qulu, İmamqulu, ölüsü-dirisi, orası, burası, irəlisi, gerisi, birisi, bəzisi, çoxusu* və s.

I şəxs, cəm. Birinci şəxsin cəmini bildirən mənsubiyyət şəkilçisinin qrammatiklikdən derivativliyə keçid meyli mövcud olsa da bu keçid intensiv deyildir. Müəyyən məqamlarda bu yolla formalaşan sözlərdə derivativlik keyfiyyəti motivləşmə baxımından natamam təsəvvür yaratsa da məzmun planı belə bir keçidin mümkünlüyünü və tamamlanmaqda olduğunu istisna etmir. Məsələn, *hamımız bir yerdə, üçümüz birlikdə, kimimiz var, çoxumuz bilmirik, özümüz bilərik* kimi ifadələrdə birinci şəxs cəm şəkilçisinin derivativliyə keçidini müşahidə etmək mümkündür.

II şəxs, cəm. İkinci şəxsin cəmində də mənsubiyyət şəkilçisi sifətlərə, say və əvəzliklərə qoşularaq qrammatiklikdən derivativliyə keçidə meyillilik nümayiş etdirir. Mənsubiyyət şəkilçiləri bir qayda olaraq üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfinə qoşularaq birinci tərəfdəki sözə məxsus sahib şəxsə anlayışını mənsub əşya məzmunu ilə tamamlayır. Bu halda onun qrammatik funksiyası baş verir. Sifət, say və əvəzliklərə qoşulduğu zaman da iddia etmək olmaz ki, söz birləşməsində sahib şəxs, mənsub əşya münasibətləri sıradan çıxmış olur. Əslində həmin anlayış şəkilçinin derivativ funksiyasına uyğun qaydada motivləşməyə doğru meyillənmiş olur. Məsələn, *yaxşınız-pisiniz, ağınız-qaranız, istiniz-soyuğunuz* kimi ifadələrdə artıq atributivlikdən substantivləşməyə meyillilik baş verir ki, bu da ikinci şəxsin cəmini bildirən mənsubiyyət şəkilçisinin müvafiq informasiya aktivliyinə uyğun olaraq derivativ funksiyasını canlandırır.

III şəxs, cəm. Mənsubiyyət kateqoriyasının üçüncü şəxsini bildirmək üçün *–ları* (-ləri) şəkilçisi işlədilir. Bu şəkilçinin-qrammatik funksiyası aid olduğu şəxsin cəmini bildirməklə birinci və ikinci tərkib arasında sintaktik əlaqə yaratmaqdan ibarətdir: *onların dəftərləri, onların kitabları, onların dostları* və s.

Üçüncü şəxs mənsubiyyət şəkilçilərinin derivativ funksiyasına gəlincə onu demək lazımdır ki, burada artıq birləşmə yaranması üçün birinci tərəfə ehtiyac qalmır. Şəkilçinin derivativliyə meyilliliyi ikinci tərəfi motivləşdirə bildiyinə görə müstəqil işlənir. Bu o zaman daha çox müşahidə etmək olur ki, üçüncü şəxsin cəm şəkilçisi zaman bildirən isimlərə, keyfiyyət bildirən sifətlərə, həmçinin qeyri-müəyyən əvəzliklərə qoşulmuş olsun. Beləliklə, üçüncü şəxs cəminin mənsubiyyət şəkilçisi aşağıdakı kimi sözlərin tərkibində özünün derivativ funksiyasını nümayiş etdirir: *axşamları, sabahları, gecələri, gündüzləri, illəri, ayları; bəziləri, elələri, belələri, kimləri, özləri* və s.

-Ları (-ləri) şəkilçisi qoşulduğu sözlərdə substantivlik yaratdıqda onlar artıq nominativ mənsubiyyət anlayışından uzaqlaşmış olur. Belə ki, nümunə kimi verilmiş sözləri şərti olaraq mənsubiyyət anlayışına *çevirdikdə* [onların] *axşamları,* [onların] *sabahları,* [onların] *gecələri,* [onların] gündüzləri, [onların] illəri, [onların] ayları, [onların] bəziləri, [onların] elələri, [onların] belələri, [onların] kimləri, [onların] özləri kimi variant alınır. Dildə, həmçinin göstərilən sözlərin dervativlik keyfiyyətini "*axşamları yola çıxmaq", "sabahları gözləmək", "gecələri yatmamaq", "gündüzləri gecələrə qatmaq", "illəri saymaq", "ayları qatışdırmaq", "bəziləri danışır", "elələri yaramır", "belələri çoxdur", "kimləri var"* kimi ifadələrin işlədilməsi təsadüfi deyildir. *–Ları* (-ləri) şəkilçisinin sözdüzəltmə funksiyası barədə Buludxan Xəlilov da müvafiq nümunələr vermişdir [6, s.71, 114].

Hal kateqoriyası şəkilçilərinin qrammatik funksiyası sözlər arasında sintaktik bağlılıq yaratmaqdan ibarətdir. Hal şəkilçiləri içərisində yiyəlik halın vəzifəsi sahib şəxs anlayışı bildirməklə adlarla adlar arasında, təsirlik, yerlik və çıxışlıq halların vəzifəsi isə adlarla feillər arasında əlaqə yaratmaqdan ibarətdir. Qrammatiklikdən derivativliyə keçiddə isə hal şəkilçili sözlər mənaca müstəqilləşir, əlaqəyaratma funksiyasına aid nominativlik semantikliklə əvəzlənir. Hal kateqoriyası şəkilçiləri içərisində daha çox təsirlik, yerlik və çıxışlıq hal şəkilçilərinin qrammatiklikdən derivativliyə keçidini müşahidə etmək olur. Bu proses çox intensiv olmasa da belə onlara aid müəyyən sözlərin formalaşmasına rast gəlmək mümkündür. Məsələn təsirlik halda qrammatik vəzifə daşıyan şəkilçilərin iştirakı ilə *kitabı oxumaq, ağacı suvarmaq, meyvəni dərmək* kimi nümunələrdə ad və feil arasındakı qrammatiklik nominativ səciyyə daşıyır. Təsirlik hal şəkilçisi derivativlik xarakteri daşıdığı təqdirdə isə qrammatik bağlılıq müşahidə edilmir. Yəni təsirlik hallı söz feillə idarə edilmir, substantivləşir, sanki

adlıq hal təsəvvürü yaradır. Məsələn, *gecəni yatmamaq, gündüzü çalışmaq, səhəri dirigözlü açmaq, axşamı gəzməyə çıxmaq* kimi ifadələrdə təsirlik hallı sözlər adlıq hala məxsus təsəvvür yaradır.

Yerlik halda qrammatik-sintaktik əlaqə yaradılması üçün *–da* (-də) şəkilçisi işlənir və bu şəkilçinin qoşulduğu sözlər feillə idarə olunur: *evdə oturmaq, parkda gəzmək, çayda çimmək* və s. Yerlik hal şəkilçisi zaman, vaxt bildirən sözlərə qoşulduqda derivativ keyfiyyət kəsb edir. Bu halda həmin şəkilçini qəbul etmiş söz qrammatik yerlik hal məzmunundan uzaqlaşaraq zaman bildirən zərfə çevrilir: *yaz-yazda, yay-yayda, qış-qışda, əvvəl-əvvəllərdə, axır-axırda, səhərlər-səhərlərdə, gün-gündə* və s. Bəzən yerlik hal şəkilçisi *bir* sözünə də qoşulub zaman mənası bildirən söz əmələ gəlməsində iştirak edir: *bir-birində* (bir vaxt, bir zaman. *–Da* (-də) yerlik hal şəkilçisinin derivativ xüsusiyyəti müvafiq mənbələrdə də xatırlanır [3, s.144; 6, s.66-67; 7, s.60-61].

Çıxışlıq halda qrammatik funksiya bildirilməsi üçün *–dan* (-dən) şəkilçisindən istifadə olunur. Bu şəkilçinin qoşulduğu sözlər feillə idarə edilir: *evdən çıxmaq, yoldan çıxmaq, şəhərdən gəlmək, yoldan dönmək* və s. *–Dan* (-dən) şəkilçisi, eyni zamanda ad nitq hissələrinə məxsus sözlərə qoşularaq əsas etibarı ilə müxtəlif mənalı zərflərin əmələ gəlməsində iştirak edir. Bu şəkilçi bir sözünə qoşularaq tərzi-hərəkət zərfi bildirən *birdən*, zaman bildirən *axşam, səhər, dünən, sabah, ertə, bu il, keçən il, srağa gün, tez* sözlərinə *qoşularaq axşamdan, səhərdən, dünəndən, sabahdan, ertədən, bu ildən, keçən ildən, srağa gündən, tezdən, tənbəllik, qorxu, hündür, alçaq* kimi sözlərə qoşularaq *tənbəllikdən, qorxudan, dündürdən, alçaqdan, aclıq, toxluq kimi sözlərə qoşularaq aclıqdan, toxluqdan* və s. zərf mənalı sözlər düzəldir. *–Dan* (-dən) şəkilçisinin də derivativ xüsusiyyətləri barədə müvafiq tədqiqatlarda bəhs edilmişdir [3, s.145; 6, s.67-117; 7, s.60-61].

Xəbərlik bildirən şəkilçilərin derivativ funksiyası

Xəbərlik şəkilçilərinin sözdəyişdiricilikdən sözdüzəldiciliyə keçid prosesi digər kateqoriya şəkilçilərinə nisbətən məhduddur. Bu da ondan irəli gəlir ki, xəbərlik şəkilçilərinin qrammatiklik funksiyası daha intensivdir. Bununla yanaşı xəbərlik şəkilçilərinin özündə də qrammatiklikdən derivativliyə keçid meyillərinin baş verməsi müşahidə edilir. Məsələn, birinci şəxsin təkini bildirən *–am* (-əm, -yam, -yəm) şəkilçiləri *dostam, qardaşam, müəlliməm, ustayam, fəhləyəm* sözlərinin tərkibində işlənərək mübtəda ilə xəbər arasında şəxsə görə uzdaşma əlaqəsi yaradır. Bununla yanaşı birinci şəxs təkinin şəkilçi elementləri müəyyən sözlərdə derivativlik funksiyası bildirməyə xidmət edir. Məsələn, *Qulam* şəxs adında birinci şəxs təkini bildirən *–am* şəkilçisi [mən] *qulam* anlayışının onomastik bir vahid kimi formalaşdıraraq həmin sözün qrammatiklikdən leksikliyə keçidinə səbəb olmuşdur. Eləcə də birinci şəxsin təkini bildirən *–am* (-əm) şəkilçisinin iştirak ilə *üç* sözündən *üçəm* (üçü birlikdə), *dörd* sözündən *dördəm* (dördü birlikdə), *tək* sözündən birlikdə *təkəm* (təkəm-seyrək), *dar* sözündən *daram* (lap dar), *şır* imitativ tərkibindən *şıram* (kəsik, çapıq) sözləri formalaşmışdır. Nominativ anlayışa görə bu nümunələrdə verilən sözləri şərti olaraq [mən] *üçəm*, [mən] *dördəm*, [mən] *təkəm*, [mən] *daram*, [mən] *şıram* kimi təsəvvür etmək olar.

